

RAMİZ İSMAYIL

## DEYİBLƏR

Atalara rəhmət olsun
Qızıl kimi söz deyiblər,
Cilalayıb dönə-dönə
Ölçüb-biçib düz deyiblər.

Deyiblər...
Naqisin yol azdığını,
"Dostun" quyu qazdığını,
"Namərd kəsər basdığını",
Bir yox, beş yox, yüz deyiblər.

Deyiblər...
Arxa olun ərənlərə,
Xeyirxah iş görənlərə,
"Yetim çörək verənlərə
Göstərər buynuz" deyiblər.

Deyiblər...
Kim çərənçi, boşboğazdı,
Ağıldan kəmdi, dayazdı,
Yaman günün ömrü azdı
Səbrli ol, döz deyiblər.

Deyiblər...
Çoxdu pulum, param demə,
Nəfsi tox ol, haram yemə,
Ramiz, ağa qara demə,
Alnıaçıq gəz, - deyiblər.

*31.03.2018,*
*Xırdalan ş.*

## AYRI ADAM AXTARMAYIN...

O qədər sadəyəm, məni
Körpə uşaq da aldadır.
Ürəyi daş, köksü taxta,
Qəlbi yumşaq da aldadır.

Yəqin belə lazım imiş,
Fələk də aldadır məni.
Bəlkə alın yazım imiş,
Mələk də aldadır məni.

Dost bildiyim "can" dediyim
Əhli-qələm də aldadır.
Bir olsa, beş olsa, nə qəm,
Küllü-aləm də aldadır.

Topasaqqal cavan molla
Əlində "Quran" aldadır.
Səni görüb üzüyola
Yerindən duran aldadır.

Qanmayana sözüm yoxdu,
Qanan niyə aldadır ki?
Şeytana, iblisə lənət
İnsan niyə aldadır ki?

Ömrümün xəzan vaxtıdı,
Xəzəl də aldadır məni.
Hüsnünə tərif dediyim,
Gözəl də aldadır daha.

Fağır qımışır üzümə,
Dəcəl də aldadır məni.
Əzrayılın nazına bax,
Əcəl də aldadır məni.

Nə var məni aldatmağa,
Ürəyi təmizəm, vallah.
Ayrı adam axtarmayın,
Həmən o Ramizəm, vallah.

*05.03.2019,*
*Xırdalan ş.*

## DƏYDİ

Dağa aranı daşıdım,
Dağı arana daşıdım.
Ağır haranın daşıdı?
Başım həmin daşa dəydi.

Ağıl verdi ağılsız da
Susdum haqlı da, haqsız da.
Dilim gizləndi ağızda
Yumruq gözə, qaşa dəydi.

Aşiqəm Ramiz adında,
Alışdım eşqin odunda.
Sevda umduğum qadın da
Qəlbimə birbaşa dəydi.

*25.02.2019,*
*Xırdalan ş.*





## "VAR AMANATI"

*(Zəlimxan Yaquba)*

Köz kimi közərdi Kəpənəkçidə,
Odlar diyarında ocaq qaladı.
Ucalmaq istədi "Şah Dağı" kimi,
Bir də ayıldı ki, "Çıraqqala"dı.

Şeirə güvəndi, sözə tapındı,
Hikmətlə böyüyüb ərsəyə gəldi.
Sənət aləmində vulkana döndü,
Salonlar, saraylar lərzəyə gəldi.

Gündoğandan, günbatana tanındı,
Şölə saçan ulduz oldu, ay oldu.
Sözə naxış vuran söz zərgəriydi,
Nizamiyə, Fizuliyə tay oldu.

Allah onu pənahında saxladı,
Tanrı yaratdığı sirrdi Zəlimxan.
Ziyarət elədi müqqədəsləri,
Ocağdı Zəlimxan, pirdi Zəlimxan.

Üzünü dağlara tutub demişdi:
"Gedirəm, ay dağlar, yar amanatı".
Getdi, dağlar boyda sərvəti qaldı,
"Sənət amanatı, var amanatı".

*20.11.2018, Xırdalan ş.*

## DÜNYANIN

Bəs deyincə dərdi, qəmi görmüşəm,
Hər sitəmi, hər ələmi görmüşəm.
Diri-diri cəhənnəmi görmüşəm,
Qaynamışam qaynağında dünyanın.

Zillət çəkdim yar könlünü alınca,
Göz yaşlarım "naxış saldı" balınca.
Gəzdim haqqın, ədalətin dalınca,
Çabaladım caynağında dünyanın.

Qan sorana qan uddurub, qusdurub,
Nərə çəkən nər igidi susdurub,
Cələ vurub, bənd-bərəni pusdurub,
Şikar oldum qarmağında dünyanın.

Hər dərdimin bir gövdəsi, yüz kökü,
Qəflə-qatır daşıyammaz söz yükü.
Ağır yükdü çörək yükü, duz yükü,
Fırlanmışam barmağında dünyanın.

Ramiz, səxa umma gönü qalından
Canı çıxar, qıyıb yeməz malından,
Həzz almadı nə beçənin balından,
Nə şorundan, qaymağından dünyanın.

*18.06.2019, Xırdalan ş.*

## GƏDƏBƏYİN DAĞLARI

Burda şeir öz-özünə yazılıb,
Qarlı qışda buz üstündə oxudum.
Qar əridi, əlvan geydi çəmənzar,
Novruz gəldi - yaz üstündə oxudum.

Bir misranı oğlu-qızı yaradıb,
Bir misranı körpə quzu yaradıb,
Bir misranı dan ulduzu yaradıb,
Səcdə qılıb diz üstündə oxudum.

Bir misra durnanın özündən düşüb,
Bir misra ceyranın gözündən düşüb,
Bir misra cüyürün dizindən düşüb,
Bir misranı iz üstündə oxudum.

Bir misranı kəklik ötən qayada,
Bir misranı tanrı çəkən boyada,
Bir msiranı dağ yolunda piyada,
Bir misranı düz üstündə oxudum.

Bir misranı "Qara bulaq" bəxş edib,
Bir misranı təzə yarpaq nəqş edib,
Bir misranı yanar ocaq bəxş edib,
Bir misranı köz üstündə oxudum.

Bir misranı sərin külək gətirdi,
Bir misranı qönçə çiçək gətirdi
Birini çiynində mələk gətirdi,
Bir misranı göz üstündə oxudum.

Bir misranın cilvəsində ay azdı,
Bir misranın haləsində ayazdı,
Bir misranı Günəş dedi, ay yazdı,
Bir misranı öz üstümdə oxudum.

Bir sehirli möcüzədi bu aləm,
Burda solmaz nə nərgizim, nə lalən,
Ramiz, daha nə kağız gəz, nə qələm,
Yazılanı saz üstündə oxudum.